Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2025-ci ildə uşaq hüquqlarının qorunması, uşaqların fiziki, psixoloji və sosial rifahının təmin edilməsi, onların təhlükəsiz mühitdə inkişafı, habelə dövlət uşaq siyasətinin icrası istiqamətində fəaliyyətini davam etdirmişdir.

Normativ-hüquqi tənzimləmə

2025-ci il ərzində uşaq hüquqlarının müdafiəsi və bu sahədə normativ tənzimləmənin gücləndirilməsi məqsədilə aşağıdakı sənəd layihələri təsdiq edilmişdir:

- "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

- "Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

- Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələblər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Ümumi fəaliyyət göstəriciləri

2025-ci il ərzində **uşaq məsələləri sahəsində 647 təlim, konfrans, seminar və icma görüşü** keçirilmiş, **10 sosial layihə** icra olunmuş və bu tədbirlərdə **28 261 nəfər** iştirak etmişdir.




Analitik araşdırmalar

Dövlət Komitəsi tərəfindən 2025-ci il ərzində uşaq hüquqlarının qorunması və uşaq rifahının yaxşılaşdırılması istiqamətində aparılan analitik və tədqiqat fəaliyyəti çərçivəsində aşağıdakı sənədlər yekunlaşdırılmışdır:

- "Azərbaycanda yeniyetmələrin hüquq düşüncəsi" mövzusunda tədqiqat hesabatı;
- Yetkinlik yaşına çatmayanlar arasında intihar hallarına səbəb olan faktorların analitik təhlili;
- Erkən evliliyin inzibati ərazi bölgüsü üzrə risk xəritəsinin formalaşdırılmasına dair təhlil.







Uşaq müəssisələrində monitorinq və qiymətləndirmə

Cari il ərzində monitorinq qrupu tərəfindən 15 dövrü və 2 növbədənkənar olmaqla ümumilikdə 17 uşaq müəssisəsində monitorinq aparılmışdır.



Nəticələr Azərbaycan Respublikasının **Nazirlər Kabinetinə təqdim edilmişdir.**

Uşaq iştirakçılığının təşviqi

Hesabat dövrü ərzində Dövlət Komitəsinin dəstəyi ilə uşaq iştirakçılığı istiqamətində Uşaq Səfirlər Məclisi tərəfindən **607 tədbir** keçirilmiş, tədbirlərdə **23 427 nəfər** iştirak etmişdir.



► Uşaq hüquqlarına dair təlim və seminarlar

Uşaq Səfirlər Məclisinin üzvlərinin, habelə region nümayəndələrinin iştirakı ilə Bakı şəhərində və regionlarda **“Oğlanlar müzakirəyə qoşulur”, “Qızlar müzakirəyə qoşulur”, “Uşaqdan-uşağa”, “Milli dəyərlərimizdən gələcəyə baxış” və “Suverenliyin izi ilə”** layihələri çərçivəsində təlim və görüşlər təşkil edilmişdir.









► “Uşaqdan-uşağa” layihəsi çərçivəsində təlimlər

“Uşaqdan-uşağa” layihəsi çərçivəsində Neftçala rayonunda uşaq hüquqları və zərərli informasiyanın qarşısının alınması mövzularında təlim keçirilmişdir.

Layihə çərçivəsində Regional İnkişaf İctimai Birliyi ilə əməkdaşlıq əsasında Quba rayonunda **4 mövzu** üzrə maarifləndirici təlim proqramları təşkil edilmişdir.











► “Mənim səsim – mənim hüquqlarım” mövzusunda dəyirmi masa

“1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü”nə həsr edilmiş “Mənim səsim – mənim hüquqlarım” mövzusunda keçirilən dəyirmi masada **115 nəfər** iştirak etmişdir.











Uşaqların zərərli informasiyadan qorunması və rəqəmsal təhlükəsizlik

► “Uşaqların zərərli informasiyadan qorunması” mövzusunda brifinq



Brifinq zamanı uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması, zərərli informasiya riskləri və profilaktik tədbirlər barədə aktual məsələlər media nümayəndələrinin diqqətinə çatdırılmışdır.

►Bloger, rəqəmsal platforma təsirçiləri (influenserlər) və jurnalistlər üçün təlimlər

Bloger, rəqəmsal platforma təsirçiləri (influenserlər) və media orqanlarının sosial media menecerləri üçün “Sosial media: Məsuliyyət və həssas yanaşma” mövzusunda, jurnalistlər üçün “Uşaq hüquqları: Mediada həssas yanaşma” mövzusunda təlimlər keçirilmişdir.



► “Uşaqların kiber mühitdə müdafiəsi və rəqəmsal təhlükələrə qarşı birgə fəaliyyət” mövzusunda dəyirmi masa



Media sahəsində maarifləndirmə fəaliyyətlərinin davamı olaraq, media nümayəndələrinin və blogerlərin iştirakı ilə “Uşaqların kiber mühitdə müdafiəsi və rəqəmsal təhlükələrə qarşı birgə fəaliyyət” mövzusunda dəyirmi masa təşkil edilmişdir.

►“Uşaq hüquqları naminə şəffaflıq və rəqəmsal islahatlar” mövzusunda konfrans

Açıq hökumət prinsiplərinin təşviqi, korrupsiyanın qarşısının alınması, uşaqların rəqəmsal xidmətlərdə iştirak imkanlarının genişləndirilməsi, bu sahədə mövcud vəziyyətin və qarşıda duran vəzifələrin müzakirəsi məqsədilə “Uşaq hüquqları naminə şəffaflıq və rəqəmsal islahatlar” mövzusunda konfrans keçirilmişdir.



Milli dəyərlərin təbliği, vətənpərvərlik və ictimai şüurun formalaşdırılması

► “Milli dəyərlərimizdən gələcəyə baxış” layihəsi

Dövlət Komitəsi, ADA Universiteti və Mədəniyyət Televiziyasının əməkdaşlığı ilə **“Milli dəyərlərimizdən gələcəyə baxış”** layihəsinə start verilmiş, ilk görüş Xalq yazıçısı Anar Rzayev ilə keçirilmiş, 111 nəfər iştirak etmişdir.





► “Zəfərdən ilhamlanan gəncliklə gələcəyə” mövzusunda konfrans

Dövlət Komitəsi, Yeni Azərbaycan Partiyası Sabunçu Rayon Təşkilatı və Bakı Gənclər Mərkəzinin birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününün beşinci ildönümü münasibətilə **“Zəfərdən ilhamlanan gəncliklə gələcəyə”** mövzusunda konfrans keçirilmişdir. Konfransda **300 nəfər iştirak etmişdir.**





Mədəni və maarifləndirici tədbirlər

► IV “Uşaq Kitab Festivalı”

Dövlət Komitəsinin təşəbbüsü, aidiyyəti qurumların iştirakı və “Azərbaycan Nəşriyyatları Assosiasiyası” İctimai Birliyinin təşkilatçılığı ilə dördüncü “Uşaq Kitab Festivalı” keçirilmişdir. Festivalda **52 000 nəfər iştirak** etmişdir.





► Daun sindromlu uşaqlar və valideynləri üçün yaz düşərgəsi

Sağlamlıq imkanları məhdud olan uşaqların reabilitasiyası, sosial xidmətlərlə təmin olunması, cəmiyyətə inteqrasiyası və valideynlərinə psixososial dəstəyin göstərilməsi məqsədilə daun sindromlu uşaqlar və onların valideynlərin iştirakı ilə **10 günlük yaz düşərgəsi** təşkil edilmişdir.





Səyyar layihələr və icma görüşləri

► “Mənim hüquqlarım” təşviqat avtobusu

“Mənim hüquqlarım” təşviqat avtobusu layihəsi çərçivəsində Zaqatala, Astara, Bərdə, Beyləqan və Şəmkir rayonlarının **25 kəndində** keçirilmiş görüşlərdə **668 uşaq** iştirak etmişdir.











Qurumlararası əməkdaşlıq

► “Arzulara qanad verək” adlı qanvermə aksiyası

Dövlət Komitəsinin təşəbbüsü, aidiyyəti qurumların iştirakı və Respublika Qan Bankının təşkilatçılığı ilə “17 Aprel – Ümumdünya Hemofiliya Günü”nə həsr edilmiş “Arzulara qanad verək” adlı qanvermə aksiyası keçirilmiş, aksiyada 250 nəfər iştirak etmişdir.



► Penitensiar müəssisədə saxlanılan yeniyetmə məhkumlarla görüş

Dövlət Komitəsi ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında əməkdaşlıq çərçivəsində yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisədə saxlanılan yeniyetmə məhkumların hüquqlarının, onların sosial adaptasiyası və cəmiyyətə reinteqrasiyası məqsədilə görüş keçirilmidir.



► Göyçay rayonunda təlim

Uşaq hüquqlarının qorunması, uşaq əməyi, uşaqlara qarşı cinsi istismarın və insan alveri qurbanı olmasının qarşısının alınması istiqamətində qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə Göyçay rayonunda region üzrə dövlət qurumları və qeyri-dövlət sektorunun nümayəndələri üçün təlim təşkil edilmişdir.





Beynəlxalq əməkdaşlıq

► “Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış (bullinq)” mövzusunda təlim

2025-ci ildə beynəlxalq ekspertlərin iştirakı “Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış (bullinq)” mövzusunda **2 günlük** və “Uşaqların zərərli informasiyadan qorunması” mövzusunda isə **4 günlük** beynəlxalq təlim keçirilmişdir.





►“Uşaqların zərərli informasiyadan qorunması” mövzusunda beynəlxalq təlim



► “Rəqəmsal mühitdə uşaqların müdafiəsi: Müasir alətlər və beynəlxalq əməkdaşlıq” mövzusunda beynəlxalq konfrans

Dövlət Komitəsinin təşkilatçılığı ilə Bakı şəhərində “Rəqəmsal mühitdə uşaqların müdafiəsi: Müasir alətlər və beynəlxalq əməkdaşlıq” mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfransda Türkiyə Respublikası, İran İslam Respublikası, Mərakeş Krallığı, Qətər Dövləti, Şimali Kipr Türk Cümhuriyyəti, habelə BMT-nin Uşaq Hüquqları Komitəsi və İSESKO-nu təmsil edən qonaqlar daxil olmaqla **30 xarici nümayəndə,** ümumilikdə isə **200 nəfər** iştirak etmişdir.





Tədbir çərçivəsində rəqəmsal mühitdə uşaqların hüquqlarının qorunması, süni intellektlə bağlı çağırışlar, uşaqların zərərli informasiyadan müdafiəsi, ailənin rolu və bu sahədə milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsi imkanları müzakirə edilmişdir.





► BMT-nin Uşaq Hüquqları Komitəsinin (CRC) tövsiyələrinin icrası məqsədilə yaradılmış aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrupun iclası

Dövlət Komitəsi tərəfindən hesabat dövründə BMT-nin Uşaq Hüquqları Komitəsinin (CRC) tövsiyələrinin icrası məqsədilə yaradılmış aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrupun iclası keçirilib.






İclas zamanı Komitənin tövsiyələrində əksini tapmış prioritet istiqamətlər, aparılmış islahatlar, müvafiq dövlət qurumları tərəfindən görülmüş işlər, həmçinin mövcud çətinliklər və gələcək addımlar ətrafında fikir mübadiləsi aparılıb.







Dövlət Komitəsinin rəhbərliyi tərəfindən uşaq hüquqları sahəsində beynəlxalq əməkdaşlıq çərçivəsində aşağıdakı tədbirlərdə iştirak edilmişdir:



Maarifləndirici materiallar

Uşaq hüquqları, kibertəhlükəsizlik və zorakılığın qarşısının alınması mövzularında **4 video-çarx** hazırlanmış, **12 maarifləndirici stiker** olmaqla **3352 ədəd material** aidiyyəti qurumlara göndərilmişdir.
"Uşaqlar və hüquq" adlı uşaqlar üçün maarifləndirici vəsait çap olunmuşdur.



QEYDLƏR